**Altıncı çağırış Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclasının**

# P R O T O K O L U №1

**Naxçıvan şəhəri** **20 fevral 2024-cü il**

20 fevral 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin yaz sessiyasının ilk iclası keçirilmişdir.

**Sədrlik edən:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli

**Katib:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin üzvü Aidə Allahverdiyeva

**İclasda iştirak edirdilər:**

| | | |
|---|---|---|
| 1. | Cəlilzadə Aidə Məhəmməd qızı | -Komitənin sədr müavini |
| 2. | Həsənov Nüsrət Firudin oğlu | -Komitənin üzvü |
| 3. | İbrahimov Qadir Abbas oğlu | -Komitənin üzvü |
| 4. | Səfərli Hacıfəxrəddin Yəhya oğlu | -Komitənin üzvü |
| 5. | Zeynalov Eldar Əhməd oğlu | -Komitənin üzvü |

**Dəvət olunan:**

1. Cəlil Rüstəmov-Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri

**İclasın gündəliyi:**

1. “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ əsasında hazırlanmış “Media haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununun layihəsi barədə;

2. “Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli 26-VI QN nömrəli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi barədə.

İclası Komitənin sədri İsmayıl Qəribli açaraq bildirdi ki, iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin 7 üzvü iştirak edir və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 42.1-ci maddəsinə əsasən komitə iclası keçirməyə səlahiyyətlidir.

İsmayıl Qəribli iclas iştirakçılarına gündəlikdə duran məsələlərlə bağlı məlumat verdi.

Komitə sədri bildirdi ki, son zamanlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin təsisçisi olduğu "Şərq qapısı" qəzetinin fəaliyyətində çətinliklər yaranmışdır. Belə ki, "Media haqqında" Azərbaycan Respublikasının 30 dekabr 2021-ci il tarixli Qanununun 59.2-ci maddəsinə əsasən siyahısı Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyən edilən orqanlar (qurumlar), Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikasının Ali Məhkəməsi istisna olmaqla, digər dövlət orqanları (qurumları) çap mediası subyektinin təsisçisi ola bilməzlər. Həmçinin, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 17 sentyabr tarixli 1844 nömrəli Fərmanı ilə çap mediası subyektinin təsisçisi ola bilən dövlət orqanlarının (qurumlarının) siyahısı təsdiq edilmişdir. Müvafiq hüquqi aktlarla Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin çap mediası subyektinin təsisçisi ola bilməsi nəzərdə tutulmamışdır. Belə olan halda 1921-ci ildən nəşr edilən, ölkəmizin və muxtar respublikamızın ictimai-siyasi həyatında özünəməxsus rolu olan "Şərq qapısı" qəzetinin təsisçisi qismində Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin çıxış etməsi qanunvericiliklə ziddiyyət təşkil edir. Qəzetin gələcək fəaliyyətinin tənzimlənməsi və statusunun qorunub-saxlanılması, muxtar respublikanın müvafiq dövlət orqanlarının da çap mediası subyekti olmaq səlahiyyətlərinin təsbit olunması üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququndan istifadə edərək "Media haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi hazırlanmışdır. Ali Məclisin Daxili Nizamnaməsinin 17.2-ci maddəsinə əsasən Ali Məclisə təqdim edilən Azərbaycan Respublikasının qanun layihəsi Daxili Nizamnamənin 15-ci və 16-cı maddələrinə uyğun olaraq Ali Məclisin iclasında baxılmaq üçün hazırlanır. Müvafiq qanun layihəsi Hüquq siyasəti komitəsinə göndərilmişdir.

Qanun layihəsi haqqında məlumat verməsi üçün söz Cəlil Rüstəmova verildi.

**Çıxışda:** Cəlil Rüstəmov bildirdi ki, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 17 sentyabr tarixli 1844 nömrəli Fərmanı ilə çap mediası subyektinin təsisçisi ola bilən dövlət orqanlarının siyahısı təsdiq edilmişdir. Müvafiq hüquqi aktlarla Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin çap mediası subyektinin təsisçisi ola bilməsi nəzərdə tutulmamışdır. Bu səbəbdən 103 yaşı olan "Şərq qapısı" qəzetinin gələcək fəaliyyətinin tənzimlənməsi məqsədilə qanunvericilik təşəbbüsü ilə məsələ qaldırılmışdır. Müstəqilliyimizin ilkin addımları və ümummilli lider Heydər Əliyevin müsahibələri bu qəzetdə dərc olunmuşdur. Həmçinin, "Şərq qapısı" qəzetinin fəaliyyətinin dayandırılması Muxtar Respublikanın dövlət idarəçiliyini pozur. Ona görə ki, Konstitusiyanın tələblərinə əsasən qəbul olunmuş normativ hüquqi aktlar rəsmi mətbu orqanda dərc olunmalıdır. Muxtar respublikada isə bu fəaliyyəti "Şərq qapısı"

qəzeti həyata keçirir. Hazırlanmış layihədə ölkə Prezidentinin Fərmanında yox, media haqqında qanunda dəyişiklik olunması təklif olunur. Layihənin məqsədi “Şərq qapısı” qəzetinin fəaliyyətini və maliyyələşdirilməsini təmin etməkdən ibarətdir.

**Çıxışda:** Hüquq siyasəti komitəsinin sədr müavini Aidə Cəlilzadə “Şərq qapısı” qəzetinin ictimai və siyasi mahiyyətinə toxundu. Ümummilli liderin Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə aktiv fəaliyyət göstərən “Şərq qapısı” qəzetinin tarixi yaşadan arxiv olduğunu qeyd etdi.

**Çıxışda:** Komitə üzvü Hacıfəxrəddin Səfərli “Şərq qapısı” qəzetinin Naxçıvanın və Azərbaycanın ictimai-siyasi həyatında böyük rola malik olduğunu vurğuladı və aparılan tarixi tədqiqat işlərində qəzetdəki məlumatlara istinad edildiyini bildirdi.

**Çıxışda:** Nüsrət Həsənov qeyd etdi ki, “Şərq qapısı” qəzeti Azərbaycan Respublikasının müstəqillik əldə olunan dövrdə tarixi-siyasi hadisələri özündə əks etdirib və onun fəaliyyətinin dayandırılması qəbuledilməzdir.

Çıxışlardan sonra İsmayıl Qəribli bildirdi ki, “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6.2-ci maddəsinə əsasən komitəyə təqdim olunmuş qanun layihəsinə dair rəy qəbul edilməlidir.

Komitə sədri rəyi oxudu və Ali Məclisin sessiya iclasına təqdim edilməsi üçün səsə qoydu. Təklif yekdilliklə qəbul edildi.

İsmayıl Qəribli gündəlikdə duran ikinci məsələ ilə əlaqədar çıxış etdi.

Bildirdi ki, Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi”ndə 6 oktyabr 2023-cü il tarixdə dəyişikliklər edilmişdir. Ali Məclisin Daxili Nizamnaməsində həmin dəyişikliklərə müvafiq uyğunlaşdırma aparmaq məqsədilə qanun layihəsi hazırlanmış, deputatlara paylanılmış və Hüquq siyasəti komitəsində müzakirəyə çıxarılmışdır.

Qanun layihəsi barədə məlumat vermək üçün söz Cəlil Rüstəmova verildi.

**Çıxışda:** Cəlil Rüstəmov bildirdi ki, Daxili Nizamnamənin 16-cı maddəsinə təklif olunan dəyişiklik ilə Ali Məclisin komitələri onlara təqdim olunmuş qanunların və qərarların eyni zamanda razılaşdırılmasını da həyata keçirəcəkdir.

Çıxışlardan sonra İsmayıl Qəribli bildirdi ki, “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6.2-ci maddəsinə əsasən komitəyə təqdim olunmuş qanun layihəsinə dair rəy qəbul edilməlidir.

Komitə sədri rəyi oxudu və Ali Məclisin sessiya iclasına təqdim edilməsi üçün səsə qoydu. Təklif yekdilliklə qəbul edildi.

**İclasa sədrlik edən:** **İ.Qəribli**

**Katib:** **A.Allahverdiyeva**